UOT 94(479.24); UOT 32:93/94

PƏRVİN İBRAHİMOVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
"Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının doktorantı
ORCID 0009-0001-9300-8073
parvin.ibrahim.m@gmail.com

İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCAN-TÜRKİYƏ-PAKİSTAN ƏMƏKDAŞLIĞININ YENİ MƏRHƏLƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/112/109-115

Məqalədə İkinci Qarabağ müharibəsindən sonrakı dövrə aid, həm Azərbaycan, həm də bütövlükdə Cənubi Qafqaz regionu üçün əhəmiyyət kəsb edən müqavilələr, əməkdaşlıq layihələri təhlil olunur. 2020-2025-ci illər ərzində Azərbaycan-Türkiyə və Azərbaycan-Pakistan münasibətləri nəzərdən keçirilir, həyata keçirilmiş və gələcəkdə planlaşdırılan ideyaların önəminə diqqət yetirilir. Dünya ölkələrinin əməkdaşlıq təcrübəsi kontekstindən Azərbaycan, Türkiyə və Pakistanın üçtərəfli münasibətlərinin gələcək perspektivləri proqnozlaşdırılır.

Açar sözlər: Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti, Pakistan İslam Respublikası, üçtərəfli əməkdaşlıq, nəqliyyat, ticarət, təhlükəsizlik.

Giriş. İkinci Qarabağ müharibəsi Azərbaycanın müstəqilliyini bərpa etdiyi gündən etibarən ərazi bütövlüyünün bərpa edilməsi uğrunda apardığı mübarizənin son – təntənəli mərhələsi oldu. Bu müharibəni hibrid müharibə də adlandırmaq olar. Çünki yeni nəsil silahlarla aparılmış, yeni hərbi üsullardan və metodlardan istifadə edilmişdir. II Qarabağ müharibəsi Ermənistanın Azərbaycana qarşı uzun illər apardığı işğal siyasətinə son qoymuş, Azərbaycan ərazisində seperatizmin köklərini iflasa uğratmış, qalib ölkə Azərbaycan üçün yeni imkanlar yaratmışdır. Azərbaycanın balanslaşdırılmış xarici siyasəti, beynəlxalq aləmdə get-gedə artan nüfuzu müharibədəki qələbə ilə daha da möhkəmlənmişdir. Beş il ərzində çox işlər görülüb: işğaldan azad olunmuş torpaqlara "Böyük Qayıdış" Proqramı uğurla həyata keçirilir. Artıq 60 mindən çox insan işğaldan azad olunmuş rayonlarda yaşayır. Onların layiqli həyat səviyyəsinin təmin olunması üçün təhsil, səhiyyə, nəqliyyat infrastrukturu qurulub və bu proses mərhələli şəkildə davam etdirilir.

2025-ci il 8 noyabr tarixində Zəfərimizin 5 illiyinə həsr olunmuş hərbi paradda bütün dünya Azərbaycanın Türkiyə və Pakistanla dostluq-qardaşlıq əlaqələrinin, davamlı qarşılıqlı dəstəyinin yüksələn xətlə inkişaf etdiyinin şahidi oldu. Bu üç ölkə böhran vəziyyətlərində bir-birinin yanında olmuş, bu dəstəyi həm ikitərəfli münasibətlərdə, həm də beynəlxalq aləmdə hiss etdirmişdir. Üç ölkə başçısı - Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistanın Baş naziri Şahbaz Şərif ötən il (03 iyul 2024-cü il tarixində) Şanxay Əməkdaşlıq Təşkilatının Dövlət Başçıları Şurasının 24-cü iclası çərçivəsində Astanada da görüşmüş və birgə bəyanat vermişdilər. Görüş zamanı gündəlikdə olan məsələlər – Qəzza, Kipr, Kəşmir münaqişələri, islamofobiya problemi olmuşdur [12]. Üçtərəfli əməkdaşlıq formatının əsasları, birgə maraqlar və məqsədlər, habelə gələcək perspektivlər barədə aşağıda daha ətraflı toxunmaq istərdim.

Əsas hissə. Vətən müharibəsində qazanılan parlaq qələbənin 5 illiyi münasibətilə Bakının Azadlıq meydanında keçirilən hərbi parad dünya mediasında gündəlikdə duran xəbərlərdən oldu. Hava məkanında, dənizdə və quruda Azərbaycan Ordusunun qüdrəti nümayiş etdirildi: Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri Xəzər dənizinin sahil sularında yüksək döyüş hazırlığı göstərdi; xüsusi təyinatlı avtomobil texnikası və silah sistemləri kolonunun keçidi oldu; Hava Hücumundan Müdafiə silahları sistemləri kolonu da nümayiş etdirildi. Ordumuzun zenit-raket kompleksi, İnsansız Sistem Qoşunları, pilotsuz uçuş aparatları və digər insansız

vasitələri təqdim edildi ki, bu da Azərbaycanın Silahlı Qüvvələrinin tamamilə yeni nəsil texnologiyalarla təchiz edildiyindən və güclü maliyyə bazasının mövcud olduğundan xəbər verir [13].

Zəfər paradı həm də onunla yaddaqalan oldu ki, bütün dünyaya Azərbaycan-Türkiyə-Pakistan həmrəyliyini göstərdi. Azadlıq Meydanında Türkiyənin və Pakistanın hərbi qüvvələrinin keçidi Azərbaycanın bu iki dövlətlə hərbi əməkdaşlığının bariz göstəricisidir. Nüvə dövləti Pakistan və NATO-da ən böyük orduya malik Türkiyə Cümhuriyyəti ilə hərbi sahədə əməkdaşlıq Azərbaycan Silahlı Qüvvələrinə yeni təcrübə qazandırmaqla yanaşı, beynəlxalq aləmdə dəstəyin faydalarını da gətirir. Azərbaycanın Türkiyə və Pakistanla münasibətləri ən çətin sınaqdan keçmişdir – bu, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etmək uğrunda uzun illər apardığı diplomatik mübarizədə iki dost-qardaş ölkənin qətiyyətli mövqeyi və İkinci Qarabağ müharibəsi davam etdiyi dövrdə Azərbaycanın yanında olması ilə izah edilə bilər. Türkiyənin Xarici İşlər Naziri Mövlud Çavuşoğlunun (2014-2023) 2021-ci il 17 noyabr tarixində keçirilən mətbuat konfransında söylədiyi *"Can Azərbaycan yalnız deyil, yalnız da olmayacaqdır. Azərbaycan Türkiyəni heç vaxt tək buraxmayıb, biz də Azərbaycanı tək qoymayacağıq"* sitatı ikitərəfli münasibətlərin xarakterini qısa, amma dolğun şəkildə ifadə edir. Vətən müharibəsi dövründə Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu (01 noyabr 2020-ci il) Bakıya işgüzar səfər etmişdi.

Türkiyə mətbuatı Azərbaycan mətbuatından heç də geri qalmır, münaqişə zonasında gedən xəbərləri və həqiqətləri dünya gündəminə çatdırırdı. Hətta Ermənistanın humanitar atəşkəs dövründə beynəlxalq humanitar hüququn prinsiplərini kobud surətdə pozaraq Gəncədə yaşayış məntəqələrinə "Toçka-U" raket hücumu nəticəsində şəhərin və dinc əhalinin ilkin vəziyyətini ilk olaraq Türkiyə jurnalistləri işıqlandıraraq dünyaya çatdırmışdılar. Hadisəyə növbəti sərt reaksiya Pakistandan gəldi - 12 oktyabr 2020-ci il tarixində Pakistanın sabiq Baş naziri İmran Xan (2018-2022): "Canımızla, silahımızla qardaş Azərbaycanın yanındayıq. Ermənistanı xəritədən silərik" bəyanatını verdi.

Müharibə dövründə Pakistan Azərbaycanın haqlı mübarizəsini fəal şəkildə dəstəkləyirdi. Vətən müharibəsinin ilk günündə Pakistan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilirdi: *"Erməni silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycanın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin mülki əhalisini intensiv atəşə tutmasını qınayırıq və bu, növbəti təxribatdır. Bu, bütün bölgənin sülh və təhlükəsizliyi üçün ciddi təhdiddir.* ***Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir.*** *Azərbaycanın BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı olan qətnamələrinə əsaslanan mövqeyini dəstəkləyirik"* [7]. Oktyabrın 28-də Pakistan Milli Assambleyası Ermənistanın Azərbaycana qarşı təcavüzünü və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı qəddar hücumlarını qəti şəkildə pisləyən qətnamə qəbul edib.

Ümumiyyətlə, Pakistan Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətindəki fəaliyyətini beynəlxalq təşkilatlarda daim dəstəkləmişdir. 1993-cü il aprelin 30-da BMT Təhlükəsizlik Şurasının Azərbaycana dair 822 nömrəli qətnaməsinin qəbul edildiyi iclasa Pakistan sədrlik edib. İslam Konfransı Təşkilatının Kəraçi şəhərində (Pakistan) keçirilən İKT Xarici İşlər Nazirlərinin XXI konfransında "Ermənistan və Azərbaycan arasında münaqişə üzrə" Qətnamə qəbul edilmişdir [3, s.161]. Bu, münaqişədə sadəcə iki – təcavüzkar Ermənistan və işğala məruz qalan Azərbaycan tərəflərinin olduğunu dəqiqliyi ilə təsdiqləyən ilk belə beynəlxalq sənəd idi.

"Ermənistan və Azərbaycan arasında münaqişə üzrə" növbəti qətnamə Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilən fövqəladə sessiyada qəbul edildi. Həmin qətnamədən bir hissəni qeyd etmək yerinə düşərdi: "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünü bir daha kəskin şəkildə pisləyir. Təcavüz nəticəsində insanların kütləvi qətlə yetirilməsi, girovlara və hərbi əsirlərə işgəncə verilməsi, yaşayış məntəqələrinin bombardman edilməsi, işğal edilmiş şəhər və kəndlərin talan edilməsi, dağıdılması və yandırılmasını insaniyyətə və bəşəriyyətə törədilən cinayət kimi qiymətləndirilir" [3, s.163]. Təcavüzün mahiyyəti bu bənddə hərtərəfli şəkildə izah edilmişdir.

Türkiyə Cümhuriyyəti və Pakistan İslam Respublikasının dünya siyasi gündəmində Azərbaycana dəstəyini qətiyyətlə ifadə etməsi müharibə dövrünü keçirən ölkəmiz üçün olduqca əhəmiyyətli idi. Uzun illər boyu öz maraqları naminə Ermənistan Respublikasının işğalçılıq siyasətini dəstəkləmiş dövlətlərə qarşı ədalətin və birliyin gücünün göstəricisi oldu. Türkiyə istehsalı olan İHA/SİHA-ların müharibədə səmərəli istifadəsi Azərbaycana bu sahədə böyük üstünlük qazandırdı. R.T.Ərdoğanın Zəfər

paradında (2020, 9 dekabr) iştirak etməsi və Azərbaycan xalqını qələbə münasibətilə təbrik etməsi üçün qardaş ölkələrin həmrəyliyinin postmüharibə dövründə yeni məna qazandığını göstərdi. Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi-siyasi-mədəni münasibətlər tarixi-etnik köklərə və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkinci Qarabağ müharibəsi iki ölkə arasında möhkəm təməllərə söykənən münasibətləri fərqli müstəviyə qaldırdı. Ona görə də İkinci Qarabağ Müharibəsi Türkiyə-Azərbaycan münasibətlərində mühüm yol ayrıcıdır və dönüş nöqtəsidir.

Azərbaycanın tarixi zəfəri 2021-ci ilin noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Türk Dünyasının Ali Ordeninin təqdim edilməsi haqqında qərarda - türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbə kimi dəyərləndirilmişdir [11].

Çoxşaxəli xarici siyasət kursu həyata keçirən respublikamız islam ölkələri, türkdilli ölkələrlə əlaqələrin gücləndirilməsinə xüsusi diqqət ayırır. Rəsmi Ankara və rəsmi İslamabad Cənubi Qafqazda yerləşən Azərbaycanla tarixi-siyasi bağlar, habelə ortaq din amilinə söykənən əlaqələr qurur. Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq formatının əsası 2017-ci ildə qoyulub. Belə ki, 2017-ci il noyabrın 30-da Elmar Məmmədyarov, Havaca Məhəmməd Asif və Mövlud Çavuş-oğlunun iştirakı ilə xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü keçirilib. Hər üç ölkə yerləşdiyi regionda özünəməxsus strateji rol oynadığından, görüşdə qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin əhəmiyyəti vurğulandı. Müzakirə edilən əsas əməkdaşlıq sahələri aşağıdakılardır:

- iqtisadi artım və davamlı inkişaf yolu ilə xalqların rifahını artırmaq məqsədilə üçtərəfli əməkdaşlığın artırılması;
- birgə layihə və proqramlar vasitəsilə enerji, nəqliyyat, gömrük, kənd təsərrüfatı, telekommunikasiya, sənaye, ətraf mühit, təhsil, elm, mədəniyyət, turizm, idman və digər sahələrdə əməkdaşlıq;
- Asiya və Avropa arasında rəqabətədavamlı daşımaları asanlaşdırmaq məqsədilə dəmir yolu, magistral və hava uzlaşdırılmasının inkişaf etdirilməsi;
- müdafiə və təhlükəsizlik sahəsində fəal əməkdaşlıq. Belə ki, müasir dövrdə bütün dövlətlər üçün əsas təhdid sahələri olan terrorizm, ekstremizm və separatizmin bütün forma və təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlıq, narkotik maddə-lərin qanunsuz istehsalı və dövriyyəsi, qeyri-qanuni silah ticarəti, insan alveri, miqrant qaçaqmalçılığı və qanunsuz miqrasiya, mədəni və tarixi irsə qarşı cinayətlər, çirkli pulların yuyulması, kibercinayətlər və digər transmilli cinayət əməllərinə qarşı birgə əməkdaşlığın daha da gücləndirilməsi qərara alındı;
- mədəniyyət, təhsil, səhiyyə, gənclərin mübadiləsi, turizm, idman və digər sahələr də daxil olmaqla, sosial və humanitar müstəvidə əməkdaşlığın artırılması [2, s.7].

Qarşıya qoyulan məqsədlərin olduqca geniş və çoxşaxəli olduğunu nəzərə alsaq, münasibətlərdə qarşılıqlı inam və etibarın güclü olması, əməkdaşlığın gələcəyə hesablandığı qənaətinə gələ bilərik. Üçtərəfli görüşün sonunda tərəflər Bakı Bəyannaməsini imzalamışlar.

Vətən müharibəsi dövründə Azərbaycanın hər yerində Türkiyə və Pakistan bayraqları dövlət bayrağımızla bir yerdə dalğalanırdı. Azərbaycan xalqının minnətdarlıq hissi və bu həmrəyliyə xalqın dəstəyi və məmnuniyyəti müharibədən sonrakı dövrdə strateji tərəfdaşlığın yeni mərhələyə keçməsinə səbəb oldu.

Azərbaycan-Türkiyə-Pakistan Xarici işlər nazirlərinin ikinci görüşü 2021-ci il yanvarın 13-də İslamabadda baş tutdu. Görüşün yekun sənədi olan İslamabad bəyannaməsində 2017-ci il 30 noyabr tarixli Bakı bəyannaməsində əks olunan əməkdaşlığın dərinləşdiriləcəyi, siyasi, strateji, ticarət, iqtisadi, sülh və təhlükəsizlik, elm və texnologiya və mədəniyyət sahələri də daxil olmaqla, qarşılıqlı maraq doğuran bütün sahələrdə tərəfdaşlığın artırılacağı əks olunurdu. Azərbaycanın işğal-dan azad edilmiş ərazilərinin bərpası və reabilitasiyası məsələlərinə Türkiyə və Pakistan dəstəyini göstərir. İslamabad Bəyannaməsinə belə bir bənd də salınmışdır: "Dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq sərhədlərinin toxunulmazlığını mühafizə etmək və qorumaq naminə güclü və birmənalı dəstək veriləcək" [8, s.4].

Azərbaycan, Türkiyə və Pakistanın üçtərəfli əməkdaşlıq formatında xarici siyasət sahəsindən əlavə, parlament diplomatiyasına da yer ayrılıb. 2022-ci il iyulun 27-də AR Milli Məclisinin Sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şəntop, PİR Milli Assambleyasının sədri Əsəd Qeysərin üçtərəfli görüşü baş tutdu. Görüş zamanı nümayəndə heyətləri işğaldan azad edil-

miş torpaqlarda oldular, Şuşaya səfər etdilər. Parlament sədrlərinin toplantısının sonunda Bakı Bəyannaməsi imzalandı və bu sənəd regionda sülhün və təhlükəsizliyin davamlılığının təmin etmək məqsədi daşıyır. Bu sənəddə Türkiyə və Pakistan Ermənistanın Azərbaycan mina xəritələrini verməyi rədd etməsini qınayaraq, azad edilmiş torpaqların yenidən inşası və məcburi köçkünlərin evlərinə qaytarılması səylərində Azərbaycanla tam həmrəy olduqlarını bildiriblər. NATO-nun ən güclü ordusuna sahib Türkiyə və nüvə dövləti olan Pakistanın Vətən müharibəsindən sonra Azərbaycanla əlaqələrinin daha da yaxınlaşması, işğaldan azad olunmuş ərazilərdə dünyaya birgə mesajları Ermənistanda revanşist meyillərin qarşısını almaqda faydalıdır.

İkinci Qarabağ müharibəsindəki qələbədən sonra imzalanmış önəmli sənədlər. Onların içərisində birinci yeri **2021-ci il iyunun 15-də** Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa şəhərinə səfəri zamanı iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında **Şuşa Bəyannaməsi** tutur. Müttəfiqlik münasibətləri haqqında Bəyannamənin əvvəlində Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində iki qardaş dövlətin prezidentlərinin görüşünün mühüm əhəmiyyəti vurğulanır, 100 il əvvəl (1921-ci ildə) imzalanmış Qars müqaviləsinə istinad edilir. Həmçinin bu tarixi sənəddə 3 müqavilənin rəhbər tutulduğu göstərilir. Onlar – 9 fevral 1994-cü il tarixində imzalanmış *"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"*, *"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"* və 16 avqust 2010-cu il tarixli *"Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"dir* [4, s.59].

Andlaşmanın bəyannamə formasında qəbul edilməsi diplomatik və politoloji baxımdan mühüm məqamdır. Belə ki, bəyannamələr - deklarasiyalar rəsmi dövlət sənədi olmaqla daxili və xarici məsələlərdə dövlətin və ya dövlətlərin əsas fəaliyyət prinsiplərini, mövqeyini ehtiva edir və açıqlayır. İndiki halda deklarantlar Şuşadan bəyan etdilər ki, Azərbaycan və Türkiyə dövlətləri beynəlxalq hüququ əsas tutmaqla öz diplomatik, siyasi, hərbi, iqtisadi və sosial-mədəni münasibətlərini daha da inkişaf etdirəcək, müstəqil dövlətlər olaraq fəaliyyətlərini maksimum uzlaşdıracaqlar [5]. Azərbaycan və Türkiyənin dostluğu və əməkdaşlığı regionda geosiyasi mənzərəni dəyişməyə qadirdir. Bu, uzun illər işğalçı siyasət yürütmüş Ermənistandan və başqa region ölkələrindən gələ biləcək təhdidləri neytrallaşdırmaq və Azərbaycanın hərbi-siyasi meydanda yalnız olmadığını göstərmək baxımından əhəmiyyətlidir.

Türkiyə ilə Azərbaycan arasında Şərgi Zəngəzur ərazisindən keçməklə birbaşa nəqliyyat-kommunikasiya əlaqələrinin (Zəngəzur dəhlizi) yaranması türk kimliyinin siyasi, hərbi, iqtisadi və mədəni-humanitar sahələrdə möhkəmlənməsinə zəmin yarada bilər [9, s.28-36]. Azərbaycan-Türkiyə həmrəyliyi həm müharibə zamanı, həm də postmünaqişə dövründə Ermənistan cəmiyyətində və hakim dairələrdə o qədər qorxu və təşviş yaratmışdı ki, məğlubiyyətin ardınca "regiondan qovulmaq" hədəsi ilə üz-üzə qaldıqlarını qeyd edirdilər.

Azərbaycan İkinci Qarabağ müharibəsində informasiya-psixoloji müharibədə də qalib gəldi. Vətən Müharibəsinə qədər Ermənistan beynəlxalq səhnədə özünü Azərbaycandan daha güclü dövlət kimi göstərmək üçün psixoloji müharibə taktikasından istifadə edirdi. Onlar bu məqsədlə radio, televiziya, qəzet və internetdən səmərəli istifadə edirdilər. Lakin Azərbaycan xalqı öz Prezidenti, Ali Baş Komandanı İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək, Ermənistanın illərdir formalaşan cəfəngiyyat dolu təbliğat maşınını cəmi 44 günə darmadağın etdi. Çünki Azərbaycanın təkcə hərbi meydanında deyil, həm də bu günün ən aktual məsələlərindən biri olan informasiya-psixoloji müharibə taktikası sahəsində rəqibini üstələdi. Ermənistanla müqayisədə Azərbaycan informasiya-psixoloji müharibə taktikalarından daha yaxşı istifadə etməklə yanaşı, həm də kommunikasiya kanallarına və sosial mediaya daha effektiv nəzarət edir. Bundan əlavə, Azərbaycanın əsas üstünlüklərindən biri odur ki, müharibə zamanı heç vaxt boz və ya qara təbliğatdan istifadə etmədi. Azərbaycan bütün şəraitdə ağ təbliğat taktikasından istifadə edərək, Ermənistan üzərində ciddi üstünlük əldə etmişdir [14, s.34-38].

Üçtərəfli əməkdaşlıq hərbi müstəvidə. Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə "Üç qardaş-2021" (2021-ci il, sentyabrın 12-dən 20-dək) beynəlxalq təlimi keçirilmişdir. Birgə təlimin keçirilməsi döyüş əməliyyatlarının aparılması zamanı dost və tərəfdaş ölkələrin xüsusi təyinatlı bölmələrinin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi, sülh və müharibə

dövründə əməliyyatlara hazırlanması, bilik və təcrübə mübadiləsinin aparılması baxımından əhəmiyyətli idi.

Mütəmadi birgə hərbi təlimlər keçirən Azərbaycan və Türkiyə Silahlı Qüvvələri Vətən müharibəsindəki parlaq qələbədən sonra - 2021-ci ilin fevralın 1-dən 12-dək Qars vilayətində "Qış-2021" birgə hərbi təlimləri keçirdi. Hərbi qulluqçularımızın bir qrupu Qars şəhərindəki təlim mərkəzində çətin relyefli və qarlı ərazilərdə, digər bir qrupu isə Kayseri şəhərində paraşütçü komandolar hazırlayan mərkəzdə məşqlərə cəlb edilmişdilər. Çətin iqlimi və relyefi ilə fərqlənən ərazilərdə döyüş əməliyyatlarının aparılması tapşırıqlarını yerinə yetirən heyətlərin ərazidə məskunlaşma qabiliyyətləri və təchizatları da yoxlanıldı [6, s.8].

2023-cü ildə Azərbaycanın Milli Qurtuluş Günündə Bakıda rəsmi səfərdə olan Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif öz bəyanatında ikitərəfli əlaqələrdə qarşılıqlı ticarət və sərmayə yatırımlarının ürəkaçan səviyyədə olmadığını dilə gətirmiş, bu sahədə səylərin artırılmasının vacibliyini belə əsaslandırmışdır ki, Pakistan neft-qaz sərvətlərindən kasad idxal ölkəsi kimi, ötən il enerjiyə 27 milyard ABŞ dolları xərcləyib [10]. Pakistanın Baş naziri Azərbaycanla, eyni zamanda, neft-kimya məhsulları sahəsində əməkdaşlıq etmək istədiyini vurğulayıb. Pakistanın bərpaolunmayan enerji - Günəş enerjisi potensialından istifadə edə bilməsi üçün Azərbaycanı sərmayə qoymağa dəvət edib. Bu yolda şəffaf və sürətli iş aparılması üçün bütün bürokratik maneələri aradan qaldıracağına söz verib. Məhəmməd Şahbaz Şərif çıxışı zamanı Pakistanın Ermənistanla diplomatik münasibətlər qurmamasını ölkəsinin mənəvi öhdəliyi kimi qiymətləndirmişdir. Azərbaycan yalnız Ermənistanla sülh sazişini imzalayandan sonra bu məsələyə yenidən baxıla biləcəyini qeyd etmişdir.

Bu üç ölkəni yaxınlaşdıran əsas amillərdən biri də ortaq dindir. Din amili ölkələr arasındakı münasibətlərdə çox zaman birbaşa, bəzən də dolayı yolla təsir göstərir.

2024-cü il iyulun 3-də Astanada "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında keçirilən görüş çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif və Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə üçtərəfli görüş baş tutdu. Ölkələrimiz arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. "Orta Dəhliz"də Pakistanın da iştirakı qeyd edildi və bunun ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin təşviqinə töhfə verəcəyi bildirildi. Görüşdə müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, 2021-ci ildə üç ölkənin xüsusi təyinatlılarının iştirakı ilə "Üç qardaş" şüarı altında keçirilən təlimlərin əhəmiyyəti vurğulandı və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklif edildi. Təklif məmnunluqla qəbul olundu. Müdafiə sənayesi sahəsində də üç ölkənin birgə istehsalının təşkil edilməsi məsələsi vurğulandı [12].

Üçtərəfli əməkdaşlıq formatında Azərbaycan qovuşdurucu-birləşdirici ölkə rolunu oynayır. Xarici siyasət vasitələri daha əhatəli olan Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi təcrübəsi formalaşıb. 2025-ci il 28 May tarixində Laçın şəhərində Azərbaycan-Türkiyə-Pakistan liderlərinin üçtərəfli görüşü baş tutdu. Azərbaycanın müstəqillik günündə ölkəmizdə sayca doqquzuncu, işğaldan azad olunmuş torpaqlarda isə sayca üçüncü olan Laçın Beynəlxalq Hava Limanının açılışı oldu. Bu görüşdə xüsusi diqqətə çatdırılan məsələlərdən biri Türkiyədə PKK terror qruplaşmasının özünü ləğv etməsi və tərk-silahı barədə qərar idi. Prezident İlham Əliyev və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Türkiyə Prezidentini uğurlu antiterror siyasəti münasibətilə təbrik etdilər. Rəcəb Tayyib Ərdoğan öz çıxışında üçtərəfli əməkdaşlıq formatının gələcək perspektivləri ilə bağlı bunları dedi: *"Türkiyə, Azərbaycan və Pakistan olaraq, mütəmadi üçtərəfli Zirvə görüşləri və nazirlər səviyyəsində toplantılar təşkil etməklə əməkdaşlığımızı institusional səviyyəyə çatdıracağıq. Müdafiə sahəsində əməkdaşlığımızı dərinləşdirib terrorla mübarizə və transsərhəd təhdidlərə qarşı ortaq qətiyyətimizi davam etdirəcəyik. Ticarətin asanlaşdırılması, investisiyaların təşviqi və rəqəmsal transformasiya sahələrində müştərək addımlar atmağı hədəfləyirik"*.

Pakistanın Baş naziri Hindistanla olan sonuncu qarşıdurma zamanı Azərbaycan və Türkiyənin göstərdiyi qətiyyətli mövqeyə görə təşəkkürünü bildirdi. Hindistanın su terroru həyata keçirdiyini, su ilə bağlı sazişi pozduğuna görə Pakistanda 240 milyon insanın içməli sudan və kənd təsərrüfatında

istifadə edilən su ehtiyatlarından məhrum edildiyini vurğuladı. Pakistanda terrorun kökünü kəsmək üçün Azərbaycan və Türkiyənin dəstəyini gözlədiyini qeyd edib.

Beləliklə, Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli tərəfdaşlıq formatı özünəməxsus xüsusiyyətlərə malik olub, qarşılıqlı etimada və üç ölkənin xalqları arasında humanitar dəstəyə və həmrəyliyə əsaslanır. Belə tərəfdaşlıq təcrübəsi qlobal kataklizmlər dövründə bu qədər möhkəm olan yeganə formatdır və gələcək inkişaf vəd edir.

Nəticə. Azərbaycan Cənubi Qafqaz ölkələri arasında öz torpaqlarını işğaldan azad etmiş və ərazisində xarici hərbi bazaya malik olmayan, sabit və müstəqil xarici siyasət yeridən bir ölkədir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi: *"Çoxları Azərbaycanın tarazlaşdırılmış xarici siyasət yürütdüyünü söyləyir, amma Azərbaycanın xarici siyasəti sırf onun milli maraqlarına söykənir"*. Postmünaqişə dövründə Azərbaycan Respublikasının xarici siyasətində yeni prioritetlər formalaşdı. Beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi sayəsində potensialını artırması nəticəsində ikitərəfli və çoxtərəfli əlaqələrdə daha sərbəst seçimlər etməyə və müttəfiqliklər qurmağa başladı. Tədqiqatda araşdırılan Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq formatının əsası 2017-ci ildə qoyulsa da, Qarabağdakı zəfərdən sonra yeni mərhələyə keçid etdi. Həmin fərqlər aşağıdakılardır:

- "Orta dəhliz" strateji əməkdaşlıq marşrutu (Şərqdən Qərbə uzanan nəqliyyat arteriyası) Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlığını daha da zəruri edir, eyni zamanda onun üçün yeni perspektivlər açır.
- Qarabağda münaqişənin ədalətlə və ərazi bütövlüyü prinsipi əsasında həll olunmasından sonra, müttəfiq respublikaların gündəmində olan Kəşmir və Şimali Kipr münaqişələrinin də həll olunması üçün üçtərəfli tərəfdaşlığın fayda verəcəyi gözlənilir.
- Müdafiə sahəsində əməkdaşlıq və "Üç qardaş-2021" tipli birgə təlimlər terrorla mübarizədə və transmilli təhdidlərin neytrallaşdırılmasında rol oynayacaqdır.
- Üçtərəfli əməkdaşlıq formatı Azərbaycanın həm müsəlman dünyası ölkələri, həm də türkdilli ölkələrlə əlaqələrinin gücləndirilməsi və ortaq maraqlarının həyata keçirildiyi yeni bir platformadır.
- Ənənəvi güc mərkəzlərinin böhranlarla üzləşdiyi dövrdə tarixi bağlara və humanitar dəstəyə söykənən Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlığı yeni, dinamik və böyük potensiala malik güc strukturu kimi formalaşmaqdadır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası XİN-nin Mətbuat Xidməti. No:282/24, Azərbaycan, Türkiyə və Pakistan üçtərəfli görüşünə dair Birgə Bəyanat. URL: https://mfa.gov.az/az/news/no28224 [11.10.2025].
2. Bakıda Azərbaycan-Pakistan-Türkiyə xarici işlər nazirlərinin birinci üçtərəfli görüşü olub. Azərbaycan.- 2017.-1 dekabr.- S.7.
3. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar. I kitab. Bakı: Elmin İnkişafı Fondu, 2015. 319 s.
4. Əhmədov E. Şuşa- tarixi-mədəni irs. Bakı: "Zərdabi Nəşr MMC", 2025, 368 s.
5. Əhmədov V. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan Respublikasının müstəqillik tarixində ən önəmli hadisələrdən biridir. 2021, 14 iyul. URL: https://mod.gov.az/az/pre/36788.html [08.11.2025].
6. Əliyeva Y. Yeni reallıqlar Azərbaycanla dost, qardaş ölkələrlə əməkdaşlığı gücləndirmək çağırışını edir. İki sahil.- 2021.- 22 sentyabr.- S.8.
7. Hacıyev R. Azərbaycan-Pakistan münasibətləri bu gün özünün ən yüksək inkişaf mərhələsindədir. 2021, 3 mart. URL: -
https://azertag.az/xeber/azerbaycan_pakistan_munasibetleri_bu_gun_ozunun_en_yuksek_inkisaf_merhelesindedir-1727981 [08.11.2025].
8. Mirzəbəyli İ. Azərbaycan – Türkiyə – Pakistan əməkdaşlığı sülhə və tərəqqiyə yeni töhfələr verəcək. Xalq qəzeti .-2021.-16 mart.-S.4.
9. Nəcəfov Z. Postmüharibə dövründə Azərbaycanın xarici siyasətinin nailiyyətləri. Heydər Əliyev adına Hərbi İnstitutun Elmi Əsərlər jurnalı, Cild 21, № 2, 2023 / 28-36.

10. President.az (2023, İyun 15). İlham Əliyevin və Baş nazir Məhəmməd Şahbaz Şərifin mətbuat üçün bəyanatları. https://president.az/az/articles/view/60313 [10.10.2025].
11. President.az. (2021, Noyabr 12). İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim edilib. URL: https://president.az/az/articles/view/54185 [10.10.2025].
12. President.az. (2024, iyul 3). Astanada Azərbaycan Prezidenti, Türkiyə Prezidenti və Pakistanın Baş naziri arasında üçtərəfli görüş keçirilib. URL: https://president.az/az/articles/view/66388 [09.10.2025]
13. President.az. (2025, Noyabr 8). Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib URL: https://president.az/az/articles/view/70546 [10.10.2025].
14. Talışinski E. Hərbi-siyasi münaqişələrdə medianın rolu və ya ideoloji müharibənin psixoloji təsirləri. Heydər Əliyev adına Hərbi İnstitutun Elmi Əsərlər jurnalı, Cild 22, xüsusi nömrə, 2024 s. 34-38.

ПАРВИН ИБРАГИМОВА
Докторант кафедры «Международных отношений и внешней политики»
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики

НОВЫЙ ЭТАП СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА, ТУРЦИИ И ПАКИСТАНА ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

В статье анализируются соглашения и проекты сотрудничества, относящиеся к поствоенному периоду после Второй Карабахской войны и имеющие важное значение как для Азербайджана, так и для всего региона Южного Кавказа. Рассматриваются отношения Азербайджан–Турция и Азербайджан–Пакистан в 2020–2025 годах, уделяется внимание значимости реализованных инициатив и проектов, а также тех, которые планируются в будущем. В контексте международного опыта сотрудничества прогнозируются перспективы трехсторонних отношений между Азербайджаном, Турцией и Пакистаном.

Ключевые слова: Азербайджанская Республика, Турецкая Республика, Исламская Республика Пакистан, трёхстороннее сотрудничество, транспорт, торговля, безопасность.

PARVIN IBRAHIMOVA
Ph.D. candidate, Department of International Relations and Foreign Affairs,
Academy of Public Administration under the President of the Republic of Azerbaijan

THE NEW STAGE OF AZERBAIJAN–TÜRKİYE–PAKISTAN COOPERATION AFTER THE SECOND KARABAKH WAR

The article analyzes the agreements and cooperation projects concluded in the post-Second Karabakh War period, which hold significant importance both for Azerbaijan and for the South Caucasus region as a whole. It reviews Azerbaijan-Türkiye and Azerbaijan-Pakistan relations during 2020-2025, highlighting the importance of the initiatives that have been implemented as well as those planned for the future. Within the context of international cooperation experience, the article forecasts the future prospects of trilateral relations among Azerbaijan, Türkiye and Pakistan.

Keywords: The Republic of Azerbaijan, The Republic of Türkiye, The Islamic Republic of Pakistan, trilateral cooperation, transportation, trade, security.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 dekabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: s.e.d. Elçin Məmmədov, t.e.d. Qabil Əliyev.